# Birgə strateji layihələr çərçivəsində əməkdaşlıq uğurla inkişaf edir



***Azərbaycan və Rusiya dövlət başçılarının birgə səyi və siyasi iradəsi sayəsində ölkələrimiz arasında əlaqələr strateji tərəfdaşlıq müstəvisində uğurla inkişaf edir. Şübhəsiz ki, hər iki ölkə rəhbərinin müntəzəm görüşləri dövlətlərarası münasibətlərə yüksək dinamizm verir, iqtisadi əməkdaşlığın davamlı inkişafı üçün əlverişli zəmin yaradır.***

Bütün bunlar barədə Prezident İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə bu ölkəyə rəsmi səfəri çərçivəsində keçirilən görüşlərdə ətraflı bəhs edilib. Dövlət başçıları çıxışlarında ikitərəfli münasibətlərdən danışarkən, əməkdaşlığın intensivliyi diqqətə çatdırılıb, eyni zamanda, bu əlaqələrin siyasi, sosial-iqtisadi sahələri bütünlüklə əhatə etdiyi xüsusi vurğulanıb.

Məhz elə bunun məntiqi nəticəsidir ki, bu gün Azərbaycanın mühüm tərəfdaşı olan Rusiya ilə əlaqələri yüksək səviyyədədir, siyasi, iqtisadi, humanitar, hərbi-texniki və s. sahələrdə əməkdaşlığı yeni inkişaf mərhələsindədir. Qarşılıqlı siyasi, sosial-iqtisadi münasibətlər iki ölkənin birgə səyi ilə mühüm tədbirlərin, önəmli layihələrin uğurla reallaşdırılmasına əlverişli imkan yaradır və yüksək göstəricilər əldə edilir.

Hazırda ticarət əlaqələri yüksək templərlə inkişaf edir. Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir. Bu dövlətin Cənubi Qafqaz ölkələri ilə ticarət əlaqələrinin, təxminən, yarısı Azərbaycanın payına düşür. Rusiya respublikamızın qeyri-neft məhsullarının ixracı üzrə ilk yerdə dayanır.

Azərbaycan ilə Rusiya arasında ticarətin yüksək templə artması strateji əməkdaşlığın mühüm göstəricisi olmaqla bərabər, dövlət başçımızın xarici iqtisadi əlaqələrin genişləndirilməsinin, eyni zamanda, qeyri-neft ixracının stimullaşdırılması istiqamətində qəbul edilən bir sıra mühüm qərarların, ən başlıcası isə Prezident İlham Əliyevin rəhbərliyi ilə gerçəkləşdirilən sistemli və ardıcıl layihələrin məntiqi nəticəsidir.

Bu gün respublikamızla Rusiya arasında ticarətin dinamik inkişafı istiqamətində mühüm önəm daşıyan tədbirlər reallaşdırılır. Məsələn, Rusiyada ölkəmizinTicarət Nümayəndəliyi, Həştərxanda Azərbaycan İş Mərkəzi, Yekaterinburq şəhərində Azərbaycan Şərab Evi, habelə Moskvada Azərbaycan məhsullarının geniş çeşiddə təqdim olunduğu "Azərbaycan nemətləri" mağazası fəaliyyət göstərir. Bütün bunlar isə hər iki ölkənin iş adamları arasında birbaşa ticarət əlaqələrinin genişlənməsini sürətləndirir.

İki ölkə arasında iqtisadi sahədə görülən işlərin nəticəsindən danışarkən, bir məqamı da xatırladaq. Belə ki, Rusiyanın Azərbaycana investisiyalarının ümumi həcmi 6,3 milyard dollar təşkil edib. Bu məbləğin 5 milyard dolları neft, 1,3 milyard dolları qeyri-neft sektoruna qoyulub.

Rusiya iqtisadiyyatına Azərbaycanın qoyduğu investisiyalar 1,2 milyard dolları üstələyib və bu investisiyalar əsasən qeyri-neft sektoruna qoyulub. 2021-ci ildə ikitərəfli ticarət dövriyyəsi üç milyard dollar təşkil edib. Bunun 2,1 milyard dolları idxalın, 920 milyon dolları ixracın payına düşüb. Ötən il Azərbaycanın ümumi ticarət dövriyyəsində Rusiyanın payı 9 faiz təşkil edib. Azərbaycanın ticarət dövriyyəsi 2021-ci ildə 2020-ci illə müqayisədə 12 faiz artıb.

Yeri gəlmişkən, burada daha bir vacib amili də vurğulayaq ki, iki ölkənin iş adamları arasında vaxtaşırı biznes forumlar, işgüzar görüşlər keçirilir, Rusiyaya ixrac missiyaları təşkil olunur, Azərbaycan məhsulları bu ölkədə keçirilən beynəlxalq sərgilərdə nümayiş etdirilir.

İki ölkənin iqtisadi-ticarət əlaqələrinin genişlənməsində, şübhəsiz ki, Azərbaycan–Rusiya və Rusiya–Azərbaycan işgüzar şuraları da uğurla fəaliyyət göstərirlər.

Hər iki ölkə enerji və nəqliyyat sahələrində də etibarlı tərəfdaşdır. Belə ki, Rusiya şirkətləri Azərbaycanın neft-qaz sektorunda icra olunan layihələrin, o cümlədən "Şahdəniz", Cənubi Qafqaz qaz boru kəməri kimi iri layihələrin fəal iştirakçısıdır. Azərbaycan nefti digər marşrutlarla yanaşı, Bakı–Novorossiysk boru kəməri ilə də dünya bazarına ixrac olunur. Bununla yanaşı, hər iki ölkənin enerji sistemləri paralel rejimdə fəaliyyət göstərir və elektrik enerjisi mübadiləsi aparır.

Göründüyü kimi, son illərin pandemiya şəraitinə baxmayaraq, iki ölkə arasında ticari-iqtisadi əlaqələr getdikcə möhkəmlənib, əmtəə dövriyyəsinin yüksəlməsinə xüsusi önəm verilib. Belə ki, əmtəə dövriyyəsi 2020-ci illə müqayisədə 16 faiz artaraq 3 milyard 300 milyon dollara çatıb. Azərbaycanda Rusiya kapitalı ilə 1000-dən artıq şirkətin səmərəli fəaliyyəti üçün əlverişli şərait yaradılıb, energetika, maşınqayırma, nəqliyyat sahələrində böyük sayda birgə layihələrin icrasına başlanılıb, kənd təsərrüfatı, infrastruktur, bərpaolunan enerji, rəqəmsal iqtisadiyyat sferalarında bu cür əməliyyatlar üçün böyük potensial mövcudluğu nəzərə alınaraq, həmin sahələrdə fəaliyyət prinsipləri müəyyənləşdirilib. Bununla bağlı Prezident İlham Əliyev Moskvada Rusiya Nazirlər Kabinetinin Əlaqələndirmə Mərkəzi ilə tanış olarkən dövlətimizin başçısı ilə görüşən Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin deyib: "Bizim hökumətlərarası komissiya bu məsələni fəal həll edir. Rusiya Federasiyası tərəfindən komissiyaya Baş nazirin müavini Aleksey Loqvinoviç Overçuk kuratorluq edir. Rusiya şirkətlərinin Azərbaycana müntəzəm işgüzar missiyaları da müsbət nəticələr verir. Biz bu əlaqələri, Rusiya İxrac Mərkəzi tərəfindən təşkil olunan səfərləri davam etdirmək istərdik. Biz, həmçinin regionlararası əlaqələrimizə də böyük diqqət yetiririk. Rusiya Federasiyasının 70-dən çox subyekti Azərbaycan ilə əməkdaşlıq edir".

Prezident İlham Əliyev ilə Rusiya Prezidenti Vladimir Putin arasında təkbətək görüşdə də ikitərəfli iqtisadi əməkdaşlıq məsələlərindən geniş bəhs edilib. Rusiya rəhbəri çıxışında Azərbaycanla Rusiya arasında ticari-iqtisadi əlaqələrin dinamik inkişafının diqqət mərkəzində saxlanıldığını, koronavirusun hökm sürməsinə baxmayaraq, keçən il əmtəə dövriyyəsinin 16 faizdən çox artdığını bildirib. Vladimir Putin bu göstəricinin məmnunluq doğurduğunu, bunun qarşılıqlı fəaliyyətin səmərəliliyinin göstəricisi olduğunu xatırladaraq bildirib: "Bu baxımdan, bizim çox ciddi planlarımız var. Bizim iqtisadi əlaqələrimiz yetərincə yaxşı şaxələndirilib və bu, irəliyə hərəkətin davam etməsi üçün yaxşı ilkin şərait yaradır".

Dövlətimizin başçısı təkbətək görüşdəki çıxışında bütövlükdə ölkələrimiz arasında siyasi münasibətlərin son illərdə çox müsbət inkişaf edərək, ən yüksək səviyyəyə çatdığını, ticari-iqtisadi əlaqələrdə müsbət dinamika əldə edildiyini vurğulayıb: "Bizim əmtəə dövriyyəsinin həcmi artıq 3 milyard dolları aşıb və qeyd edildiyi kimi, 16 faiz artıb. Bu ildə də artım perspektivi var, yanvar ayının göstəriciləri buna dəlalət edir. Biz çoxsaylı konkret layihələri həyata keçiririk…".

Azərbaycanla Rusiya arasında ticari-iqtisadi əlaqələrin davamlı inkişaf etməsi ilə bağlı hər iki ölkənin dövlət başçılarının mətbuata bəyanatlarında da geniş bəhs olunub, bu istiqamətdə qarşılıqlı əməkdaşlığın artırılması imkanları və perspektivləri nəzərdən keçirilib, qarşılıqlı əmtəə dövriyyəsinin təqribən 3,4 milyard dollara yüksəlməsi, birgə kapital qoyuluşunun ümumi həcminin isə 6 milyard dollar təşkil etməsi bildirilib.

Bəyanatlarda Rusiya–Azərbaycan hökumətlərarası komissiyasının tezliklə növbəti iclasını keçiriləcəyi, həmçinin energetika, kənd təsərrüfatı və bir sıra sahələrdə kooperasiyanın inkişafı üzrə imkanların öyrənilməsi üçün Azərbaycana Rusiya işgüzar missiyalarının göndərilməsinin planlaşdırıldığı diqqətə çatdırılıb. Eyni zamanda, Rusiyanın biznes strukturlarının elektroenergetika sahəsində Azərbaycan ilə əməkdaşlıqda maraqlı olmaları, bu qurumların respublikamızın elektrik şəbəkələrinin modernləşdirilməsinə, həmçinin bərpaolunan enerji mənbələri sahəsində olan layihələrə qoşulmağa hazır olmaları vurğulanıb.

Rusiya rəhbəri bəyanatında sənayedə də səmərəli tərəfdaşlıq qurulduğunu, ötən il kommersiya və xüsusi təyinatlı avtomobillərin istehsalı üzrə "QAZ qrupu" ilə "Azərmaş"ın müştərək zavodunun açıldığı, həmçinin Rusiyanın iştirakı ilə Azərbaycan dəmir yollarının və Bakı metropoliteninin qatarlarının texniki cəhətdən yeniləndiyi, respublikamızda "KamAZ" birgə servis mərkəzinin tikildiyi xatırladılıb.

Yeri gəlmişkən, Moskvada Prezidentlər İlham Əliyev və Vladimir Putin tərəfindən imzalanan "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə"də iki ölkə arasında ticari-iqtisadi əlaqələrin perspektivləri ilə bağlı bir sıra mühüm bəndlər də yer alıb. Məsələn, Bəyannamənin 23-cü bəndində deyilir: "Tərəflər davamlı inkişafa və hər iki dövlətin iqtisadi potensialından səmərəli istifadəyə böyük əhəmiyyət verərək iqtisadi islahatların həyata keçirilməsində qarşılıqlı fəaliyyət göstərəcək, iki ölkə arasında iqtisadi qarşılıqlı fəaliyyətin dərinləşdirilməsi məqsədilə 1 sentyabr 2018-ci ildə imzalanmış Rusiya–Azərbaycan əməkdaşlığının başlıca istiqamətlərinin inkişafı üzrə Fəaliyyət Planının realizə edilməsinə, ikitərəfli və çoxtərəfli beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərinə uyğun olaraq əmtəə və xidmətlərin sərbəst hərəkəti üçün əlverişli şəraitin yaradılmasına, eləcə də regional iqtisadi əməkdaşlığın irəlilədilməsinə yardım göstərəcəklər".

Bəyannamədə daha sonra Rusiya Federasiyası və Azərbaycan Respublikasının qarşılıqlı faydalı ticarət-iqtisadi, sərmayə və elmi-texniki əməkdaşlığı dərinləşdirmək, istehsal və elmi əməkdaşlığı, hər növ mülkiyyət formalı təsərrüfat subyektləri arasında birbaşa əlaqələri keyfiyyətcə yeni səviyyəyə qaldırmaq niyyətində olduqları qeyd edilib. Bununla yanaşı, milli qanunvericiliklər çərçivəsində metallurgiya, neft-qaz və ağır maşınqayırma, aviasiya, avtomobil, kimya, əczaçılıq və yüngül sənaye, kənd təsərrüfatı, yol-tikinti və qida maşınqayırması müəssisələri arasında iqtisadi əlaqələrin daha da inkişaf etdiriləcəyi əminliyi ifadə olunub.

Qeyd edək ki, adı çəkilən bəyannamədə hər iki ölkənin milli qanunvericiliyi və kredit-pul siyasəti çərçivəsində kredit-bank təşkilatlarının fəaliyyətinə, maliyyə institutlarının əməkdaşlığının inkişaf etdirilməsinə, maliyyə-sənaye qrupları, istehsal və digər təşkilati-təsərrüfat strukturları da daxil olmaqla birgə müəssisələrin yaradılması da nəzərdə tutulur. Azərbaycanla Rusiyanın qarşılıqlı hesablaşmalarda milli valyutalardan istifadəyə, bank kartlarına birgə xidmət daxil olmaqla ödəniş sistemlərinin qarşılıqlı uyğunluğuna, eləcə də hər iki ölkənin bankları arasında birbaşa müxbir münasibətlərin inkişaf etdirilməsinin reallaşacağı da planlaşdırılır.

Azərbaycan Respublikası və Rusiya Federasiyası tərəfindən Bəyannamədə intellektual nəqliyyat sistemləri texnologiyalarından birgə istifadə etməklə tranzit-nəqliyyat qarşılıqlı fəaliyyətinin potensialının ardıcıl inkişafının, "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin davamlı və təmmiqyaslı fəaliyyəti üçün texniki-iqtisadi şəraitin təmin edilməsi də qarşıya mühüm vəzifə kimi qoyulub.

Bəyannamədə hər iki ölkə arasında sadalanan məsələlərə yanaşı, bu dövlətlərin ərazilərindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin təhlükəsizliyinin və fasiləsiz fəaliyyətinin təmin edilməsi, yanacaq-energetika sektorunda, o cümlədən, səmərəli infrastruktur layihələrinin icrası da daxil olmaqla neft-qaz yataqlarının kəşfiyyatı, emalı, enerji resurslarının nəqli, alternativ və bərpaolunan enerji mənbələri sahəsində də əməkdaşlığı dərinləşdirmək niyyəti vurğulanıb.

Bəyannamədə hər iki ölkənin gələcəkdə atom enerjisindən dinc məqsədlərlə istifadə sahəsində qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi və s. məsələlərlə əlaqədar imkanların nəzərdən keçiriləcəyi də nəzərdə tutulub.

*Vaqif BAYRAMOV, "Xalq qəzeti"*